# MƏHKƏMƏ-HÜQUQ ŞURASININ BÜLLETENİ

OKTYABR 2025

# MÜNDƏRİCAT

**Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin, sədrlərinin və sədr müavininin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı** . . . . . . . . . . . . . . . . . 3

**Ali Məhkəmənin hakimlərinin təyin edilməsi, apellyasiya instansiyası məhkəmələrinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin QƏRARLARI** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5

**Ali Məhkəmə Plenumunun növbəti iclası keçirilib** . . . . . . . . 8

**Bakıda Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyası işə başlayıb** . . . . . . . . . . . . . . . . . . . . 9

**Bakıda “Məhkəmə hakimiyyəti və hakimiyyətin digər iki qolu arasında münasibətlər” mövzusunda beynəlxalq konfrans keçirilib** . . . . . . . . . . . . . . . 12

**Beynəlxalq Hakimlər Assosiasiyasının nümayəndə heyəti Ali Məhkəmədə olub** . . . . . . . . . . . . . . . . . 15

**Ali Məhkəmə daşınmaz əşyaların əldə edilməsi zamanı vicdanlılıqla bağlı qanunvericiliyin tətbiqi üzrə mübahisəli hüquqi məsələni müzakirəyə çıxarır** . . . . . . . . . . 16

**Ali Məhkəmədə “Podrat müqaviləsindən irəli gələn mübahisələrdə qanunvericiliyin tətbiqi” mövzusunda müzakirələr təşkil edilib** . . . . . . . . . . . . . . . . . 18

**Bakı Arbitraj Mərkəzinin açılış mərasiminə həsr olunmuş beynəlxalq konfrans keçirilib** ........ 19

**Məhkəmə-Hüquq Şurası ilə Qazaxıstan Respublikasının Ali Məhkəmə Şurası arasında Anlaşma Memorandumu imzalanıb** ........ 21

**Xankəndidə "Məhkəmə sisteminin inkişafının konstitusiya təminatı: müasir çağırışlar" mövzusunda konfrans keçirilib** ........ 22

**Ağacəkmə aksiyası keçirilib** ........ 25

**Məhkəmə-Hüquq Şurasının üzvü, Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Özbəkistanda beynəlxalq konfransda iştirak edib** ........ 26

**Qərarlar** ........ 27

**Hüquqi aktlar** ........ 33

**Dünyada hüquq** ........ 37

# Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin, sədrlərinin və sədr müavininin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

**apellyasiya instansiyası məhkəmələri üzrə:**

1.1. Ələddin Tofiq oğlu Məcidov Şəki Apellyasiya Məhkəməsi sədrinin müavini təyin edilsin;

1.2. Samir Firdusi oğlu Həsənov Şirvan Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri vəzifəsindən azad edilərək həmin məhkəmənin sədrinin müavini təyin edilsin;

1.3. Zahid Tahir oğlu Məmmədov Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.4. Xəqani Hacı oğlu Səmədov Şəki Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

**ağır cinayətlər məhkəmələri üzrə:**

1.5. Hüseyn İnanc oğlu Hüseynli Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.6. Nigar Arzu qızı İmanova Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək

Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.7. Babək Əkbər oğlu Pənahov Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

**hərbi məhkəmələr üzrə:**

1.8. Fərman Məmməd oğlu Abbasov Tərtər Hərbi Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**inzibati məhkəmələr üzrə:**

1.9. Rəşad Mövsüm oğlu Nuriyev Ağcabədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şirvan İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

**kommersiya məhkəmələri üzrə:**

1.10. İlkin Əli oğlu Əliyev Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

1.11. Fərid Eldar oğlu Hətəmzadə Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

1.12. İlham Sadət oğlu İbrahimov Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

1.13. Fuad Ələsgər oğlu Hüseynov Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

1.14. İlqar Vidayət oğlu Hüseynov İsmayıllı Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.15. Emin İlham oğlu Məmmədli Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Oğuz Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.16. Zaman Şakir oğlu İmanov Gəncə Şəhər Məhkəməsi sədrinin müavini təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 oktyabr 2025-ci il

# Ali Məhkəmənin hakimlərinin təyin edilməsi, apellyasiya instansiyası məhkəmələrinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin QƏRARLARI



**Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında**
**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Cəmilova Xəyalə Adil qızı,
Hüseynov Zaur Nazim oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası
Milli Məclisinin sədri Sahibə Qafarova

Bakı şəhəri, 24 oktyabr 2025-ci il

**Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında**
**Azərbaycan Respublikası Milli Məclisinin QƏRARI**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-

ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Bakı Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Ağalarov Həmid Azər oğlu,

Hümbətov Fəhmin Zaur oğlu,

Qasımov Vidadi Kamal oğlu,

Mədətli Fərid İlham oğlu,

Sevdimalıyeva Günel Arif qızı.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası
Milli Məclisinin sədri Sahibə Qafarova

Bakı şəhəri, 24 oktyabr 2025-ci il

**Gəncə Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında**
**Azərbaycan Respublikası Milli Məclisinin QƏRARI**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Gəncə Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Qəhrəmanov Əkrəm Sabir oğlu,

Məmmədov Tural Nurulla oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası

Milli Məclisinin sədri Sahibə Qafarova

Bakı şəhəri, 24 oktyabr 2025-ci il

**R.A.Xəlilovun Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında**
**Azərbaycan Respublikası Milli Məclisinin QƏRARI**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Ramin Adilxan oğlu Xəlilov vəzifəsi dəyişdirilərək Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası
Milli Məclisinin sədri Sahibə Qafarova

Bakı şəhəri, 24 oktyabr 2025-ci il

**F.M.Abbasovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin QƏRARI**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsinə və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Fərman Məmməd oğlu Abbasov vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası
Milli Məclisinin sədri Sahibə Qafarova

Bakı şəhəri, 24 oktyabr 2025-ci il

# Ali Məhkəmə Plenumunun növbəti iclası keçirilib



2025-ci il oktyabrın 7-də Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

İclasda Ali Məhkəmənin məhkəmə kollegiyalarının tərkiblərinin, qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə və əlavə kassasiya qaydasında yenidən baxılmasına dair məhkəmə tərkiblərinin və kassasiya instansiyası məhkəməsində məhkəmə aidiyyətinə dair mübahisələr üzrə şikayətlərə mülki, kommersiya və inzibati kollegiyalara daxil olan hakimlərdən ibarət qarışıq tərkibdə baxılmasına dair məhkəmə tərkibləri barədə plenum qərarlarında dəyişiklik edilməsi müzakirəyə çıxarılıb.

İclasda həmçinin "Şəxsiyyət (qeyri-əmlak) hüquqlarının müdafiəsi haqqında" Ali Məhkəmə Plenumunun Qərar layihəsi ilkin müzakirəyə çıxarılıb.

Eyni zamanda "İnzibati mübahisələrə dair işlər üzrə məhkəmə qaydasında tətbiq edilən müvəqqəti xarakterli müdafiə tədbirləri haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2023-cü il 4 oktyabr tarixli 14 nömrəli Qərarında əlavə və dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərar layihəsi müzakirə olunub və müvafiq qərar qəbul edilib.

Sonra 2024-cü ildə və 2025-ci ilin I yarımilliyində Bakı İnzibati Məhkəməsində qanunvericiliyin tətbiqinin məhkəmə təcrübəsinə dair məsələləri və ədalət mühakiməsinin həyata keçirilməsi haqqında məlumatlar dinlənilib.

İclasda "Vəkillərin İxtisas Komissiyasının hakim olan üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2023-cü il 16 yanvar tarixli 4 nömrəli qərarında dəyişiklik edilməsi barədə məsələyə, həmçinin konkret işlərə baxılıb.

# Bakıda Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyası işə başlayıb




2025-ci ilin oktyabrın 12-də Bakı Konqres Mərkəzində Beynəlxalq Hakimlər Assosiasiyasının (IAJ – International Association of Judges) 67-ci Baş Assambleyası öz işinə başlayıb. Assambleyanın Azərbaycanda keçirilməsi ölkəmizin artan nüfuzunun göstəricisi, eyni zamanda Azərbaycanda son illər həyata keçirilmiş mütərəqqi məhkəmə-hüquq islahatlarının nəticəsidir. Xüsusən də məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması istiqamətində son iki ildə aparılmış islahatlar beynəlxalq hakim ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilib.

Assambleyanın açılış mərasimində dünyanın 71 ölkəsindən 300-ə yaxın nümayəndə, hakimlər, vəkillər, hökumət rəsmiləri və beynəlxalq təşkilatların təmsilçiləri, eləcə də tanınmış hüquqşünas-ekspertlər iştirak ediblər. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, süni intellekt obrazlarının təqdimatında ölkəmiz haqqında tanıtım videoçarxı nümayiş etdirilib.

Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyasının iştirakçılarına müraciətini oxuyub.






Açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, müstəqilliyimiz bərpa olunandan sonra Azərbaycan öz məhkəmə sistemini demokratiya, qanunçuluq və ədalət prinsipləri əsasında qurmağa başlayıb. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiya hazırlanaraq qəbul olunub, orada hakimiyyət bölgüsü, qanunun aliliyi, insan ləyaqətinin təmin edilməsi və məhkəmə hakimiyyətinin müstəqilliyi ifadə edilib. Bu təməllər Prezident İlham Əliyev tərəfindən həyata keçirilən davamlı islahatlarla daha da möhkəmləndirilib. Diqqətə çatdırılıb ki, bu gün bütün dünyada ədalət mühakiməsi ölkələr arasında sıx əməkdaşlıq tələb edir. Bu istiqamətdə Beynəlxalq Hakimlər Assosiasiyasının rolu böyükdür, çünki ədalət mühakiməsinin bütün dünyada daha da təkmilləşdirilməsinə xidmət edir. Bildirilib ki, hazırda dünyanın məhkəmə sistemi qlobal çağırışlarla üz-üzədir və bunlara hazır olmalıdır.

Sonra çıxış edən Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov bildirib ki, məhkəmə hakimiyyəti hər hansı bir cəmiyyətin ən fundamental dəyərlərinin keşiyində dayanan bir qarantdır. Məhkəmə hakimiyyəti insanları səhvlərdən qoruyur, üzərlərinə düşən vəzifənin lazımi şəkildə icrasında istiqamətləndirir. Hər kəs məhkəməyə hörmət etməlidir. Çünki vəzifəsindən və tutduğu mövqedən asılı olmayaraq, insanların hüquqlarının qorunduğunu son nöqtə məhz ədalət mühakiməsini həyata keçirən hakim olacaq.

Beynəlxalq Hakimlər Assosiasiyasının prezidenti Duro Sessa isə çıxışında doğru ədalət mühakiməsinin diqqətdən kənarda qalmamalı olduğunu bildirib. Qeyd edilib ki, məhkəmə hakimiyyətinin səsinin hər tərəfdə eşidilməsi üçün anlaşma və etimadın qurulmasında məhz konstitusion strukturların fəaliyyətinin tarazlı şəkildə həyata keçirilməsi önəmlidir. Bütün bu dəyərlər çox məhkəmə hakimiyyətinin müstəqilliyini qoruyub saxlaya bilməsi baxımından çox vacibdir.











Daha sonra Beynəlxalq Hakimlər Assosiasiyasının "Məhkəmə müstəqilliyi mükafatı"nın təqdimetmə mərasimi keçirilib. Mükafatı Beynəlxalq Hakimlər Assosiasiyasının Baş katibi Giacomo Oberto təqdim edib.

Tədbir bədii hissə ilə davam edib.

Bununla yanaşı, tədbir çərçivəsində "Ədalət mühakiməsi rəmzləri" adlı sərgi təşkil olunub. Sərgidə dünyanın 80 ölkəsindən gətirilmiş 150-yə yaxın hakim, vəkil və dövlət ittihamçısına məxsus cübbələr, ordenlər, döş nişanları, markalar və pul əsginasları nümayiş etdirilir.







# Bakıda “Məhkəmə hakimiyyəti və hakimiyyətin digər iki qolu arasında münasibətlər” mövzusunda beynəlxalq konfrans keçirilib



2025-ci ilin 14 oktyabr tarixində Bakı Konqres Mərkəzində Beynəlxalq Hakimlər Assosiasiyasının (IAJ – International Association of Judges) 67-ci Baş Assambleyası çərçivəsində “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “Məhkəmə hakimiyyəti və hakimiyyətin digər iki qolu arasında münasibətlər” mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda dünyanın 71 ölkəsindən 300-ə yaxın nümayəndə - hakimlər, vəkillər, hökumət rəsmiləri və beynəlxalq təşkilatların təmsilçiləri, eləcə də tanınmış hüquqşünas-ekspertlər iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev bildirib ki, demokratik cəmiyyətin əsas təməllərindən biri hüquqi dövlətdir. Hüquqi dövlət quruculuğunda isə hakimiyyətlərin bölgüsü prinsipinin həyata keçirilməsi əsas şərtdir. Müasir konstitusion quruluşun fundamental əsaslarından biri dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə qollarına ayrılması təşkil edir. Bu amil təmərküzləşmənin və hakimiyyətdən sui-istifadənin qarşısını alan, insan və vətəndaş hüquq və azadlıqlarının, qanunun aliliyinin və demokratiyanın təminatına xidmət edən zəruri şərtdir. Qeyd edilib ki, hakimiyyətlərin bölgüsü prinsipinə uyğun olaraq, məhkəmə hakimiyyəti müstəqil hakimiyyət qoludur. Məhkəmələr demokratik və hüquqi dövlətlərdə hüquq və azadlıqlarının, cəmiyyətin təməl dəyərlərinin qoruyucusudur. Hakimiyyətin heç bir qolu təkbaşına mövcud ola bilməz, onlar digər qollarla vəhdətdə mövcud olur. Bu vəhdət onların səlahiyyətlərinin bölgüsünü təmin etməklə yanaşı, hakimiyyətin balanslı idarəçiliyinin həyata keçirilməsinə şərait yaradır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında qeyd edib ki, hakimiyyət bölgüsü hər şeydən əvvəl təsisatlar haqqında anlayışdır, səlahiyyətlərin bölündüyü, tarazlandığı və məsuliyyət daşıdığı konstitusion qaydanın yaradılması deməkdir. Həmin strukturun sütunlarından biri kimi məhkəmə hakimiyyəti olduqca mühüm rol oynayır. Onun məqsədi qanunu ədalətlə, qorxu və ya üstünlük olmadan tətbiq etmək, eyni zamanda, icraedici və qanunverici hakimiyyət qolları ilə qarşılıqlı hörmətə əsaslanan konstruktiv dialoqu qorumaqdır. Vurğulanıb ki, ölkəmizdə məhkəmə hakimiyyətinin müstəqilliyinin konstitusion qarantı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində dərin və davamlı islahatlar aparılıb. Bu islahatlar məhkəmələri qanunçuluğun keşikçiləri və ədalət mühakiməsinin yekun hakimi kimi gücləndirib. Diqqətə çatdırılıb ki, texnologiyanın, süni intellektin və sosial medianın sürətli inkişafı məhkəmələr qarşısında həm yeni imkanlar, həm də risklər yaradır. İqlim dəyişikliyi isə





məhkəmə hakimiyyətinin üzərinə yeni və mürəkkəb öhdəliklər qoyur. Bu kontekstdə Beynəlxalq Hakimlər Assosiasiyası son dərəcə mühüm rol oynayır.
Avropa İnsan Haqları Məhkəməsinin hakimi Lətif Hüseynov isə məhkəmə hakimiyyəti ilə digər hakimiyyət qolları arasında münasibətlərin mürəkkəb və aktual məsələ olduğunu vurğulayıb. Qeyd edilib ki, hakimiyyət bölgüsü yalnız funksiyaların ayrılması deyil, eyni zamanda məsuliyyət və balans prinsipidir. Hakimiyyət qolları arasında dominantlıq yarandıqda, bu, xüsusilə məhkəmə hakimiyyətinin müstəqilliyinə zərbə vurur. Məhkəmə hakimiyyətinin rolu əməkdaşlıq və qarşılıqlı anlaşma çərçivəsində fəaliyyət göstərməkdən ibarətdir. Məhkəmə hakimiyyəti digər qollar arasında münasibətləri, dialoq və əməkdaşlığı ehtiva edir.

Beynəlxalq Hakimlər Assosiasiyasının Prezidenti Duro Sessa bildirib ki, Hakimlərin müstəqilliyinin insan hüquqları və azadlıqlarının təminatı baxımından əsas şərtdir. Bildirilib ki, məhkəmə qərarları yalnız qanuna əsaslanmalı və heç bir xarici təsirə məruz qalmamalıdır. Əfv məsələləri, eləcə də digər siyasi təsirlər məhkəmə qərarlarına müdaxilə etməməlidir. Avropa Hakimlərinin Məşvərət Şurasının 2015-ci il tarixli rəyində bu mövzuda əhəmiyyətli yanaşmalar ortaya qoyulub. Həmin sənəddə məhkəmə hakimiyyətinin cəmiyyət və digər dövlət institutları qarşısında daşıdığı məsuliyyət ətraflı şəkildə əksini tapıb.

Beynəlxalq Hakimlər Assosiasiyasının Birinci Vitse-prezidenti, İbero-Amerika Qrupunun Prezidenti Volter Barone çıxışında ispandilli ölkələrdə məhkəmə sahəsindəki problemlərə toxunub. Qeyd edilib ki, bu gün ispandilli Amerika ölkələrində məhkəmə hakimiyyətinin müstəqilliyi və əməkdaşlıq balansı çətinliklərlə üzləşir. Hakimiyyət qolları arasında ahəngdarlığın vacibliyi, hər bir qolun səlahiyyət limitlərinin qorunmasının önəmi vurğulanıb.

Beynəlxalq Hakimlər Assosiasiyasının vitse-prezidenti və Afrika Qrupunun Prezidenti Marsel Koassi çıxışında Afrika təcrübəsindən danışıb. Bildirilib ki, Afrika ölkələrində ədliyyə hakimiyyətinin hesabatı maliyyə müstəqilliyi təmin etmiş şəffaf yanaşmanın bariz nümunəsinə çevrilir. Həmçinin ədliyyə hakimiyyəti tərəfindən təqdim edilən hesabat parlament tərəfindən həyata keçirilən nəzarət mexanizminə töhvə vermiş olur. Afrikada ədliyyə və digər hakimiyyət qolları arasında əlaqələr sürətlə inkişaf etməkdədir. Bu kontekstdə çoxtərəfli əməkdaşlıq prioritet olmalıdır.

BMT-nin hakimlərin və vəkillərin müstəqilliyi üzrə xüsusi nümayəndəsi Margaret Satterhwaite isə konfransa








videomüraciətində demokratiya və insan hüquqlarının müdafiəsi üçün üç əsas şərtin – qanunun aliliyi, hakimiyyət bölgüsü və məhkəmə sisteminin müstəqilliyinə hörmətin mövcud olduğunu diqqətə çatdırıb. Bildirilib ki, müstəqil olmayan məhkəmələr siyasi təsirlərə qarşı dayanıqlı ola bilmir, bu isə hüquqların müdafiəsini çətinləşdirir. Ədalət sisteminin siyasi qurumlardan struktur və funksional müstəqilliyinin təmin edilməsi zəruri hesab edilib.

Daha sonra konfrans sual-cavab sessiyası ilə davam etdirilib.

Konfransda həmçinin təltifetmə mərasimi keçirilib. Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, ədliyyə naziri Fərid Əhmədov və Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev Beynəlxalq Hakimlər Assosiasiyasının fəxri medalı ilə təltif olunublar.










# Beynəlxalq Hakimlər Assosiasiyasının nümayəndə heyəti Ali Məhkəmədə olub




2025-ci ilin oktyabrın 15-də Beynəlxalq Hakimlər Assosiasiyasının (IAJ – International Association of Judges) 67-ci Baş Assambleyası çərçivəsində ölkəmizdə səfərdə olan nümayəndə heyəti Azərbaycan Respublikasının Ali Məhkəməsində olub.

Qonaqları salamlayan Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov məhkəmənin fəaliyyəti barədə ətraflı məlumat verib, hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilən tədbirləri diqqətə çatdırıb.

Görüşdə Azərbaycanda müasir və müstəqil məhkəmə sisteminin inkişafının, eləcə də bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Sonra qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olub, məhkəmə iclas zallarını, Plenum zalını, məhkəmənin kitabxanasını və Məhkəmə tarixi muzeyini ziyarət ediblər. Nümayəndə heyəti Azərbaycanda məhkəmə sistemində son illərdə aparılan islahatları yüksək qiymətləndirib.

Sonda qonaqlar xoş təəssüratlarını bölüşüb və xatirə fotosu çəkdiriblər.





# Ali Məhkəmə daşınmaz əşyaların əldə edilməsi zamanı vicdanlılıqla bağlı qanunvericiliyin tətbiqi üzrə mübahisəli hüquqi məsələni müzakirəyə çıxarır



Azərbaycan Respublikası Ali Məhkəməsinin vahid məhkəmə təcrübəsinin formalaşdırılması vəzifəsinin icrası istiqamətində görülən işlərin davamı olaraq Mülki Prosessual Məcəllənin 418-1-ci maddəsində təsbit edilmiş mexanizmə növbəti dəfə müraciət edilməsi qərara alınmışdır.

Hazırda Ali Məhkəmənin Mülki kollegiyasının icraatında olan əvvəllər müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqini zəruri edən mülki işin halları ilə müəyyən olunmuşdur ki, mülkiyyət hüququ ilə iddiaçıya məxsus mənzil onun iradəsi olmadan saxta etibarnamə əsasında özgəninkiləşdirilmiş və sonradan bir neçə dəfə üçüncü şəxslər tərəfindən notarial qaydada bağlanmış alqı-satqı müqaviləsi əsasında alınmışdır. İddiaçı əşya barəsində bağlanmış bütün alqı-satqı müqavilələrinin etibarsız hesab edilməsi barədə iddia qaldırmışdır.

Birinci instansiya məhkəməsi tərəfindən iddia tam təmin olunmuş, apellyasiya instansiyası məhkəməsi isə ilk alqı-satqı müqaviləsinin etibarsızlığı hissəsində qətnaməni qüvvədə saxlasa da, Mülki Məcəllənin 140 və 148.2-ci maddələrinə istinadən üçüncü şəxsləri vicdanlı əldə edən saymış və onlarla bağlanmış müqavilələrin etibarsızlığı hissəsində iddianı rədd etmişdir.

İşə kassasiya qaydasında baxılarkən mübahisəli məsələyə münasibətdə Ali Məhkəmənin ayrı-ayrı məhkəmə tərkibləri arasında fərqli hüquqi yanaşmaların mövcud olduğu müəyyən olunmuşdur.

Belə ki, Ali Məhkəmənin Mülki kollegiyasının bir sıra məhkəmə tərkibləri əvvəllər oxşar mübahisələr üzrə apellyasiya instansiyası məhkəməsi ilə eyni hüquqi mövqedən çıxış edərək, əlavə heç bir dəyərləndirməyə ehtiyac duymadan, sadəcə daşınmaz əmlakın dövlət reyestrindəki qeydə əsaslanaraq mülkiyyət hüququ əldə etmiş şəxsləri vicdanlı saymaqla, onlarla bağlanmış müqavilələrin etibarsızlığı tələblərini təmin etməmişlər.

Bundan fərqli olaraq, hazırda işə baxan məhkəmə tərkibi hesab edir ki, mübahisənin qanunvericiliyin tələblərinə uyğun ədalətli və obyektiv həlli məqsədi ilə işə baxılarkən əmlakın əvvəlki mülkiyyətçiyə geri qaytarılmasının qarşısının alınması üçün formal olaraq “vicdanlı əldə edən” görüntüsü yaratmaqla bağlı

müəyyən ardıcıl və xarakterik addımların mövcudluğu aydınlaşdırılmalıdır. Belə ki, qanunvericiliyin aşağıda istinad edilən aidiyyəti normaları bu halların araşdırılmasını istisna etmir.

Azərbaycan Respublikasının mülki qanunvericiliyi daşınmaz əmlakın dövlət reyestrinin məzmununun həqiqiliyi və tamamlığı və bu qeydə güvənərək hüquq əldə edən şəxslərin vicdanlılığı prezumpsiyasına əsaslanır (Mülki Məcəllənin 140 və 148-ci maddələri). Bunun əksini sübut etmək vəzifəsi iddiaçının, yəni əvvəlki mülkiyyətçinin üzərinə düşür.

Nəzərə alınmalıdır ki, 140-cı maddənin mətnində daşınmaz əşyanı əldə edənin vicdanlılığını istisna edən iki ayrı əsas nəzərdə tutulmuşdur: 1) satıcının mülkiyyət hüququnun reyestrdəki qeydinə dair etiraz reyestrə daxil edildikdə; 2) əldə edən qeydin qeyri-dəqiq olduğunu bildikdə.

Birinci əsas tam aydın olsa da, ikinci əsasın yəni əldə edən üçüncü şəxsin satıcının adına olan qeydiyyatın əsassız olmasını bilməsinin sübuta yetirilməsi çətinlik törədir. Belə ki, əksər hallarda mülkiyyətçi adına əsassız qeydiyyat aparılmış şəxslə sonrakı əldə edən (üçüncü şəxs) arasındakı sövdələşmədə və danışıqlarda iştirak etmədiyindən üçüncü şəxsin reyestrdəki qeydin düzgün olmadığını bildiyini təsdiq edəcək birbaşa sübutları olmur. Bu halın mövcudluğu yalnız dolayı sübutlarla (əmlakın cinayət yolu ilə və digər şəkildə qanunsuz əldə edilməsi; satıcı və əldə edən arasında qohumluq əlaqəsi və ya digər yaxın münasibət olması; əmlakın həqiqi bazar dəyərindən şübhə çəkəcək qədər aşağı qiymətlə əldə edilməsi; əldə edənin əmlakın maddi dəyərini artırmaq üçün hər hansı vəsait qoymadığı halda qısa müddət sonra əldə etdiyi qiymətdən xeyli yuxarı qiymətlə satışa çıxarması; əldə edənin daşınmaz əmlakın alqı-satqısı ilə məşğul olan şəxs olduğu üçün bazar qiymətlərini yaxşı bilməsi, əqd bağlanarkən şübhəyə əsas verən digər halların mövcudluğu və s.) əsaslandırıla bilinir. Bu sübutların əldə edənin vicdanlılığı prezumpsiyasını aradan qaldırmağa kifayət edib-etməməsi məhkəmənin qiymətləndirməsindən asılı olur.

Bu mübahisələr üzrə məhkəmə təcrübəsinin təhlili belə nəticəyə gəlməyə əsas verir ki, vicdanlı əldə etmə institutu ilə bağlı vahid hüquqi mövqe formalaşmamış, mübahisələrin qanunvericiliyin tələblərinə uyğun ədalətli və obyektiv həll edilməsi üçün hüquqi standartlar və ümumi meyarlar müəyyənləşdirilməmiş, bir çox hallarda əmlakından qeyri-qanuni yolla məhrum edilmiş mülkiyyətçi ilə həmin əmlakı reyestr qeydinə etimad edərək əldə etmiş şəxslərin hüquqlarının hansı həddə qorunmalı olduğu barədə fərqli mövqelər sərgilənmişdir.

Odur ki, qeyd olunanlar nəzərə alınaraq, mübahisəli məsələ üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi baxımından Mülki Prosessual Məcəllənin 418-1-ci maddəsində nəzərdə tutulmuş hüquqi mexanizmdən istifadə olunmasına qərar verilmişdir.

Müzakirəyə çıxarılacaq məsələlər əsasən aşağıdakılardan ibarətdir:

Daşınmaz əşya üzərində əşya hüquqlarını vicdanlı əldə etmənin şərtləri hansılardır ?
Mülki Məcəllənin 140 və 148.2-ci maddələrinin tətbiqi xüsusiyyətləri nədən ibarətdir ?
Bu kateqoriya işlərə baxılarkən əldə edənin vicdanlılığı hansı hüquqi standartlar və meyarlar əsasında yoxlanılmalıdır ?
Daşınmaz əşyanı əldə edən üçüncü şəxsin qeydin qeyri-dəqiq olduğunu bilməli olmasının sübuta yetirilməsi onun vicdanlılığı prezumpsiyasını aradan qaldıra bilərmi ?
Bununla əlaqədar olaraq Ali Məhkəmə müzakirəyə çıxarılmış mübahisəli hüquqi məsələni ictimaiyyətin diqqətinə çatdıraraq maraqlı şəxsləri və təşkilatları 2025-cü ilin noyabr ayının 30-dək yazılı formada əsaslandırılmış hüquqi rəylərini (amicus curiae rəyi) Ali Məhkəməyə təqdim etməklə müzakirələrdə iştiraka dəvət edir.

Rəylər yazılı qaydada Ali Məhkəmənin Mülki kollegiyasının ünvanına və ya elektron poçt vasitəsilə (advisory.board@supremecourt.gov.az) göndərilməlidir.

# Ali Məhkəmədə “Podrat müqaviləsindən irəli gələn mübahisələrdə qanunvericiliyin tətbiqi” mövzusunda müzakirələr təşkil edilib



2025-ci il 23 oktyabr tarixində Azərbaycan Respublikası Ali Məhkəməsinin yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.

İclasda Ali Məhkəmənin kollegiya sədrləri, hakimlər, Elmi-Məsləhət Şurasının üzvləri, eləcə də Azərbaycan Respublikası Hesablama Palatasının sədr müavini Nəsir Sadıqovun rəhbərlik etdiyi nümayəndə heyəti, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru Samir Mahmudov, hüquqşünaslar Arif Eyyubov və Sabir Qəniyev iştirak ediblər.

İclasda “Podrat müqaviləsindən irəli gələn mübahisələrdə qanunvericiliyin tətbiqi” mövzusu müzakirə olunub.

İclasa sədrlik edən Ali Məhkəmənin Kommersiya kollegiyasının sədri Kəmalə Abiyeva qeyd edib ki, müzakirənin məqsədi podrat müqavilələri ilə bağlı yaranan mübahisələrin həlli zamanı müvafiq hüquq normalarının tətbiqində vahid məhkəmə təcrübəsinin formalaşdırılmasına nail olmaqdır. Bildirilib ki, Kollegiya tərəfindən ötən ilin iş planına uyğun olaraq podrat müqavilələrindən irəli gələn mübahisələr üzrə ümumiləşdirmə aparılıb və yeni, geniş məzmunlu Plenum qərarının layihəsi hazırlanıb. Bu baxımdan bugünkü iclasda aparılacaq elmi müzakirələrin Plenum qərarının təkmilləşməsinə mühüm töhfə verəcək.

Daha sonra “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə əhatə olunan podrat işləri üzrə şifahi formada və ya həmin Qanunda müəyyən edilmiş qaydalara əməl edilmədən bağlanan yazılı müqavilələrin etibarlılığı, sifarişçi tərəfindən işin qəbulu zamanı aşkar edilməsi çətin olan qüsurların müəyyən edilməsi halında iddia müddətinin başlanma anı, habelə sifarişçi tərəfindən müqavilədə nəzərdə tutulmayan əlavə işlərin dəyərinin ödənilməsi məsələləri ilə bağlı müxtəlif hüquqi aspektlər müzakirə olunub, iştirakçıların rəy və təklifləri dinlənilib.

İclasın sonunda vurğulanıb ki, müzakirə zamanı səsləndirilən mülahizələr və təkliflər podrat müqavilələrindən irəli gələn mübahisələr üzrə hüquq tətbiqetmə təcrübəsinin təkmilləşdirilməsi və vahid yanaşmanın formalaşdırılması baxımından əhəmiyyətlidir və Ali Məhkəmənin gələcək fəaliyyətində nəzərə alınacaqdır.

# Bakı Arbitraj Mərkəzinin açılış mərasiminə həsr olunmuş beynəlxalq konfrans keçirilib



2025-ci ilin 24 oktyabr tarixində Azərbaycan Arbitraj Assosiasiyası və Bakı Arbitraj Mərkəzinin birgə təşkilatçılığı ilə Bakı Arbitraj Mərkəzinin açılış mərasiminə həsr olunmuş beynəlxalq konfrans keçirilib.

“Azərbaycan Arbitraj Günləri 2025” çərçivəsində təşkil olunan konfrans beynəlxalq arbitraj sahəsində mühüm yeniliklərin müzakirəsinə həsr edilib. Tədbirdə 600-dən çox iştirakçı, o cümlədən 70-dən artıq aparıcı mütəxəssis, hüquqşünas və dövlət rəsmiləri iştirak edib.

Konfransda açılış nitqi ilə çıxış edən Azərbaycan Arbitraj Assosiasiyasının və Bakı Arbitraj Mərkəzinin sədri Kəmalə Mehdiyeva qeyd edib ki, Mərkəzin daimi arbitraj təşkilatı olaraq əsas məqsədi mübahisələrin səmərəli və ədalətli həllinə xidmət edən arbitraj icraatının təşkili və idarə edilməsindən ibarətdir. Bildirilib ki, son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatlar ədalət mühakiməsinin müasirləşdirilməsinə və alternativ mübahisə həlli mexanizmlərinin inkişafına mühüm təkan verib. Bu siyasətin məntiqi davamı kimi, Bakı Arbitraj Mərkəzinin yaradılması ölkəmizdə arbitraj institutunun inkişafı üçün yeni imkanlar açır. Tədbirin məqsədi beynəlxalq təcrübə mübadiləsini təşviq etmək, dövlət və özəl sektor nümayəndələri arasında əməkdaşlığı gücləndirmək, eləcə də ölkəmizdə arbitraj sahəsinin inkişafına töhfə verməkdir.

Tədbirdə həmçinin Azərbaycan və ingilis dillərində “Bakı Arbitraj Hüququ” jurnalının nəşr olunacağı diqqətə çatdırılıb.

Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında arbitraj institutları ilə məhkəmə sistemi arasında əməkdaşlığın vacibliyini vurğulayıb. Qeyd edilib ki, arbitraj mübahisələrin ədalətli, operativ və razılaşmalara hörmət prinsipi əsasında həllinə imkan verir, bu da investorların etimadını artırır, davamlı inkişafı dəstəkləyir və beynəlxalq əməkdaşlığı gücləndirir. Vurğulanıb ki, Azərbaycan ticarət və investisiya sahəsində regional mərkəzə çevrildikcə, arbitrajla məhkəmə sistemi

arasında əlaqələrin möhkəmlənməsi ədalətə olan inamı artıracaq və gələcək tərəqqiyə töhfə verəcək.

Ədliyyə naziri Fərid Əhmədov isə Bakı Arbitraj Mərkəzinin yaradılmasını Azərbaycanın hüquq sisteminin beynəlxalq arenaya inteqrasiyası istiqamətində mühüm addım kimi dəyərləndirib. Bildirilib ki, ölkəmizdə artıq beynəlxalq arbitraj proseslərinə dərindən bələd olan, bu sahədə ixtisaslaşmış gənc hüquqşünaslar nəsli formalaşıb. Onlar həm beynəlxalq arbitraj məhkəmələrində iş aparmaq bacarığına, həm də müxtəlif arbitraj panellərində arbitr kimi fəaliyyət göstərmək təcrübəsinə malikdirlər. Bu, Azərbaycanın hüquq mühitinin inkişafı baxımından mühüm göstəricidir.

Avropa İttifaqı Şurasının keçmiş prezidenti Şarl Mişel çıxışında arbitrajın təkcə hüquqi mexanizm deyil, həm də etimadın, sülhün və hüququn aliliyinin simvolu olduğunu vurğulayıb. Diqqətə çatdırılıb ki, arbitraj insan sivilizasiyasının ən dəyərli ixtiralarından biridir. O, fikir ayrılıqlarının zor gücü ilə deyil, qarşılıqlı anlaşma və dialoq yolu ilə həllinə əsaslanır və bu da hüququn gücünə inamın təzahürüdür.

Xüsusi Hüququn Unifikasiyası üzrə Beynəlxalq İnstitutun keçmiş prezidenti Maria Chiara Malaguti bildirib ki, regionda iqtisadi inteqrasiyanın, ticarət və investisiya əməkdaşlığının inkişafı üçün etibarlı hüquqi mühitin yaradılması vacibdir. Bu baxımdan Bakı Arbitraj Mərkəzinin təsis edilməsi çox mühüm və vaxtında atılmış addımdır. Bu mərkəz təkcə hüquqşünaslar və mütəxəssislər üçün deyil, həm də ölkə və region üçün strateji imkan yaradır. Çünki arbitraj mübahisələrin sülh, qarşılıqlı hörmət və hüququn aliliyi prinsipləri əsasında həllinə xidmət edir.

Tədbir daha sonra konkret mövzular üzrə panel müzakirələrlə davam etdirilib.

# Məhkəmə-Hüquq Şurası ilə Qazaxıstan Respublikasının Ali Məhkəmə Şurası arasında Anlaşma Memorandumu imzalanıb



2025-ci il 29 oktyabr tarixində ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikasının Ali Məhkəmə Şurasının sədri Dmitriy Malaxovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Ali Məhkəməsində olub.

Qonaqları salamlayan Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov Azərbaycan və Qazaxıstan arasında strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq sistemində uğurla inkişaf etdiyini vurğulayıb.

Qonaqlara ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, bu sahədə tətbiq edilən yeniliklər və Ali Məhkəmənin fəaliyyəti barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, iki ölkə arasında məhkəmə sahəsində əlaqələrin daha da dərinləşdirilməsi, birgə seminar və təlimlərin təşkili, eləcə də təcrübə mübadiləsi proqramlarının həyata keçirilməsi gələcək əməkdaşlığın inkişafına mühüm töhfə verir.

Qazaxıstan Ali Məhkəmə Şurasının sədri Dmitriy Malaxov səmimi qəbula görə təşəkkür edərək, Azərbaycanla hüquq və ədalət sahəsində əməkdaşlığın gücləndirilməsinin hər iki ölkənin məhkəmə sistemlərinin təkmilləşdirilməsinə xidmət edəcəyini bildirib.

Görüş çərçivəsində ədalət mühakiməsinin təkmilləşdirilməsi, iki dövlətin məhkəmə orqanları arasında əməkdaşlığın genişləndirilməsi və əlaqələrin dərinləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası ilə Qazaxıstan Respublikasının Ali Məhkəmə Şurası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Sonra qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olublar.

# Xankəndidə "Məhkəmə sisteminin inkişafının konstitusiya təminatı: müasir çağırışlar" mövzusunda konfrans keçirilib



2025-ci ilin oktyabrın 31-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində "Məhkəmə sisteminin inkişafının konstitusiya təminatı: müasir çağırışlar" mövzusunda konfrans keçirilib.

Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə keçirilən konfransda dövlət rəsmiləri, hakimlər, məhkəmə ictimaiyyətinin nümayəndələri, eləcə də universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının dövlətçiliyin möhkəmlənməsi və hüquqi dövlətin inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edilib ki, aparılan məqsədyönlü islahatlar məhkəmə-hüquq sisteminin inkişafına, onun müstəqilliyinin və şəffaflığının təmininə xidmət edir. Vurğulanıb ki, elektron məhkəmə sistemlərinin tətbiqi, hakimlərin seçimi mexanizmlərinin təkmilləşdirilməsi və gənclərin hüquq sahəsinə marağının artması bu sahədə mühüm nailiyyətlərdəndir.

Qeyd edilib ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil dövlət quruculuğunun hüquqi bünövrəsini formalaşdırıb. Hazırda ölkəmizdə Konstitusiyanın ideyaları Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Çıxışda həmçinin məhkəmə sisteminin müasir tələblərə uyğun qurulması, innovativ texnologiyaların tətbiqi və ədalətə inamın möhkəmləndirilməsinin əsas hədəflərdən olduğu vurğulanıb.

Daha sonra çıxış edən Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsi Elçin Yusubov bildirib ki, Azərbaycan xalqı bu il təkcə Konstitusiyanın qəbulunun ildönümünü deyil, həm də onun prinsiplərinin həyatda bərpası mərhələsini yaşayır. 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Konstitusiya müstəqil dövlət quruculuğunun, insan hüquq və azadlıqlarının təminatçısına çevrilib. Konstitusiyada təsbit olunmuş ərazi bütövlüyü prinsipi

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə aparılan Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində tam bərpa edilib. Bu qələbə təkcə hərbi deyil, həm də hüquqi və konstitusion ədalətin bərpasıdır. Azad olunmuş ərazilərdə aparılan bərpa və məskunlaşma prosesi, o cümlədən Xankəndidə yaradılan müasir infrastruktur, Konstitusiyanın insan rifahı və ədalət prinsiplərinin təzahürüdür.

Qeyd olunub ki, məhkəmə sistemi Konstitusiyanın həyata keçirilməsinin əsas təminat mexanizmidir və islahatlar ədalətə inamı möhkəmləndirir. Elektron məhkəmə sistemi və infrastruktur islahatları ədalətə çıxış imkanlarını genişləndirib, işğaldan azad olunmuş ərazilərdə yeni məhkəmə strukturlarının yaradılması isə ədalətin bərpasında mühüm rol oynayır. Vurğulanıb ki, "Konstitusiya və Suverenlik İli" dövlətin gücünün ədalətli qanun tətbiqində təcəssüm etdiyini xatırladır və hər bir hüquqşünas bu prinsiplərin qoruyucusu olmalıdır.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxışında bildirib ki, suverenlik mövzusuna həsr olunmuş tədbirin məhz Xankəndidə keçirilməsinin xüsusi mənası var. Çünki məhz Xankəndinin azad edilməsi ilə Azərbaycanın dövlət suverenliyi tam bərpa olunub. Qeyd edilib ki, Qarabağ Universiteti bölgədə məskunlaşma prosesinin önündə gedən ali təhsil müəssisəsi kimi təkcə tədris deyil, həm də elmi-tədqiqat və innovativ həllərin hazırlanması istiqamətində fəaliyyətini genişləndirir. Vurğulanıb ki, hüquqşünaslıq ixtisasında yeni dövrün tələblərinə uyğun tədris planı hazırlanır və universitet savadlı, peşəkar hüquqşünasların yetişdirilməsində maraqlıdır. Həmçinin Qarabağ Universiteti ilə Ali Məhkəmə arasında əməkdaşlığın vacibliyi bildirilib və qeyd edilib ki, universitetin müəllimləri arasında artıq hakimlər də fəaliyyət göstərirlər.

Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov çıxışında qeyd edib ki, Azərbaycan Respublikası Konstitusiyasının qəbulu müstəqilliyin itirilməsi təhlükəsi ilə üzləşdiyimiz mürəkkəb dövrə təsadüf edib. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqilliyimizin qorunub saxlanılması xalqımızın xoşbəxtliyidir. Vurğulanıb ki, Konstitusiyamız dünyanın ən məzmunlu və təkmil konstitusiyalarından biridir və o, Azərbaycan xalqının iradəsini əks etdirir. Qeyd edilib ki, Azərbaycan müstəqil dövlət olsa da, suverenliyi yalnız 2020 və 2023-cü illərdə — şəhidlərimizin qanı, xalqımızın birliyi və Ali Baş Komandanın qətiyyəti sayəsində tam bərpa olunub. Çıxışda Konstitusiyamızda təsbit olunan digər müddəalar, qanunun aliliyi, məhkəmə hakimiyyətinin rolundan bəhs olunub.

Bakı Dövlət Universitetinin kafedra müdiri, Məhkəmə-Hüquq Şurasının üzvü Əlizadə Məmmədov Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il Konstitusiyasının əhəmiyyəti və onun beynəlxalq hüquqla əlaqəsindən danışıb. Konstitusiyanın Azərbaycan dövlətinin suverenliyini hüquqi olaraq təsdiqlədiyi və müstəqil dövlətin hüquqi əsaslarını formalaşdırdığı vurğulanıb. Bildirilib ki, 2025-ci ilin "Konstitusiya və suverenlik ili" olaraq qeyd edilməsi, Azərbaycanın suverenliyinin daha da möhkəmləndiyini və ərazi bütövlüyünün bərpasını simvollaşdırır. Qeyd olunub ki, Konstitusiya, həmçinin dövlətin daxili hüququ ilə beynəlxalq hüququn qarşılıqlı əlaqəsini tənzimləyən bir sənəd kimi, məhkəmələrə beynəlxalq hüquq normalarını tətbiq etmək imkanı verir. Bu proses, beynəlxalq hüququn üstünlüyünü və onun Azərbaycan hüququ ilə harmonizasiyasını təmin edir. Konstitusiyanın bəzi maddələri, xüsusən insan hüquqlarına aid olanlar, beynəlxalq hüquq normalarının tətbiqi üçün hüquqi çərçivə yaradır.

Xankəndi Şəhər Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü İlkin Abdullayev çıxışında bildirib ki, müstəqilliyin əldə edilməsindən sonra müasir dövrün reallıqlarına cavab verən Konstitusiyanın qəbul olunması zərurət idi. Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası dövlət tariximizdə ən əlamətdar hadisələrdən biridir. Vurğulanıb ki, məhkəmə hakimiyyəti cəmiyyətin sabitliyini və davamlı inkişafını təmin edən, eyni zamanda iqtisadi inkişafa stimul verən mühüm institutdur. Cəmiyyətin dinamik inkişafı Konstitusiyanın daim təkmilləşdirilməsini və dövrün çağırışlarına uyğunlaşdırılmasını tələb edir. Məhkəmə sisteminin müasirləşdirilməsi bu baxımdan böyük əhəmiyyət daşıyır.

Sonda Ali Məhkəmənin İnzibati Kollegiyasının sədri Xəqani Məmmədov, Kommersiya Kollegiyasının sədri Kəmalə Abiyeva və Mülki Kollegiyanın sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Sənan Hacıyev tələbələr qarşısında çıxış edərək Ali Məhkəmənin fəaliyyəti və rəhbərlik etdikləri kollegiyaların iş istiqamətləri barədə ətraflı məlumat veriblər. Həmçinin, tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Ağacəkmə aksiyası keçirilib



“Konstitusiya və Suverenlik İli” çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının təşkilatçılığı ilə Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib.

Aksiyada Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, ekologiya və təbii sərvətlər nazirinin birinci müavini Rəşad İsmayılov, həmçinin hər iki qurumun rəhbər heyəti, əməkdaşları və könüllülər iştirak edib.

Tədbir çərçivəsində Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.

# Məhkəmə-Hüquq Şurasının üzvü, Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Özbəkistanda beynəlxalq konfransda iştirak edib



Cari ilin 2-3 oktyabr tarixlərində Özbəkistan Respublikası Ali Məhkəmə Şurası və Özbəkistan Ədalət Akademiyasının təşkilatçılığı ilə Daşkənd şəhərində bu ölkənin Ədalət Akademiyasının rəsmi açılış mərasimi və "Yeni Özbəkistanda yüksək ixtisaslı hakimlər korpusunun komplektləşdirilməsi: İslahatların səmərəliyi və inkişaf perspektivi" adlı beynəlxalq konfrans keçirilib.

Tədbirdə Məhkəmə-Hüquq Şurasının üzvü - Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayev iştirak edib.

Açılış mərasimində Akademiya binası ilə tanışlıq olub, eləcə də Akademiyanın tarixi, məhkəmə simulyasiyası üçün məşq zalı, auditoriyalar barədə iştirakçılara məlumat verilib.

Eyni zamanda ixtisaslı hakimlər korpusunun komplektləşdirilməsinin milli və beynəlxalq sistemləri, məhkəmə sistemi üçün ixtisaslı kadrların hazırlanmasında beynəlxalq əməkdaşlıq, peşəkar hakim korpusunun komplektləşdirilməsinin beynəlxalq standartları mövzularında müzakirələr aparılıb.

Tofiq Paşayev tərəfindən Azərbaycanda məhkəmə-hüquq sistemində həyata keçirilən son islahatlar, "Elektron məhkəmə" informasiya sisteminin funksional imkanlarının artırılması ilə rəqəmsal transformasiya sahəsində idarətmənin təkmilləşdirilməsi, hakimlərin fəaliyyətinin qiymətləndirilməsinə dair yeni qaydaların və metodologiyanın işlənib hazırlanması, o cümlədən vakant hakim vəzifəsinə namizədlərin seçilməsinə dair təkmilləşdirilmiş normativ tənzimlənmə, məhkəmələrdə əmək və icra intizami vəziyyətinə riayət edilmə vəziyyətinin öyrənilməsi barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib. Həmçinin məhkəmə statistikasının beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla yeni formalarının təsdiqi sahəsində görülmüş işlər, bu sahədə mövcud müsbət təcrübə və qazanılmış nailiyyətlərdən bəhs edilib.

Konfransda aparılan bilik və təcrübə mübadiləsinin Azərbaycan məhkəmə sisteminin təkmilləşdirilməsi üçün faydalı olacağı vurğulanıb.

# Mülki işlər üzrə
# ★★★ statuslu qərar

**2[102]-2697/2025 xülasə**

**Mübahisəli hüquqi məsələnin qısa məzmunu:**

XDS İcraiyyə Komitəsinin 1989-cu il 27 aprel tarixli qərarı ilə cavabdehə ev tikmək üçün torpaq sahəsi verilmiş, lakin həmin torpaq sahəsi üzərində mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmamışdır.
Cavabdeh ölkə xaricində olduğundan onun atası və bacısı torpaq sahəsini iddiaçının atasına satmış və bu barədə notarial qaydada təsdiqlənmiş akt tərtib olunmuşdur. Cavabdeh də öz növbəsində torpaq sahəsinin iddiaçının atasına satılmasına etiraz etmədiyi barədə yazılı razılıq vermişdir. Həmin vaxtdan etibarən torpaq sahəsi iddiaçının atasının, sonuncu vəfat edəndən sonra isə iddiaçının istifadəsində olmuşdur. Sonradan cavabdeh əqdin notariat qaydasında təsdiqlənməsindən boyun qaçırdığından iddiaçı torpaq sahəsinin alqı-satqısına dair müqavilənin bağlanmış hesab olunması barədə iddia qaldırmışdır.
Məhkəmələr iddia tələbini rədd edərkən, gəldikləri nəticəni onunla əsaslandırmışdır ki, cavabdeh tərəfindən verilmiş iltizamdakı iradə ifadəsi mübahisəli torpaq sahəsinə dair alqı-satqı müqaviləsinin zəruri şərtlərinə riayət edilməsi kimi qiymətləndirilə bilməz. Torpaq sahəsi səlahiyyətli dövlət orqanı tərəfindən cavabdehin istifadəsinə verilməsinə baxmayaraq, nə torpaq islahatı zamanı, nə də ondan sonra cavabdehin mülkiyyətinə verilməmiş və sonuncunun torpaq sahəsi üzərində mülkiyyət hüquqları dövlət qeydiyyatına alınmamışdır. Mülkiyyət hüququnu iddiaçı tərəfə vermək üçün cavabdeh tərəfin həmin torpaq sahəsinə mülkiyyət hüququ olmamış və hal-hazırda da yoxdur.

**Kassasiya instansiyası məhkəməsinin mövqeyi:**

Ali Məhkəmə hesab etmişdir ki, iş üzrə təqdim olunmuş akt mahiyyətcə torpaq sahəsinin alqı-satqısı barədə bağlanmış müqavilə kimi qiymətləndirilə bilər. Aktda alqı-satqı münasibətlərinə xas olan əsas elementlər – əvəzli hüquq ötürülməsi, tərəflərin razılığı və öhdəliklərin müəyyən edilməsi aydın şəkildə ifadə olunmuşdur. Müqavilənin “akt” adlandırılması onun hüquqi mahiyyətini dəyişmir, çünki tərəflərin niyyəti və iradəsi torpağın alqı-satqısına yönəlmişdir. Həmçinin cavabdehin torpağın satılmasına dair yazılı razılığı və sonrakı 17 il ərzində etiraz etməməsi onun əqdi faktiki olaraq bəyəndiyini göstərir. Bu hal Mülki Məcəllənin 357-360-cı maddələrinə əsasən “bəyənmə” (sonradan verilmiş razılıq) kimi qiymətləndirilir və əqdi etibarlı saymaq üçün əsas yaradır.
Mülki Məcəllənin aktın imzalandığı vaxt qüvvədə olan 335.2-ci maddəsi üzrə əqdin etibarlı hesab edilməsi üçün formanın pozulması əks tərəfin təqsiri ucbatından baş verməli, əqd qanunazidd olmamalı və yazılı formada tərtib edilməlidir. İş materiallarından görünür ki, iddiaçı öhdəlikləri yerinə yetirmiş, cavabdeh isə notarial təsdiqdən yayınmışdır. Məhkəmə həmçinin müəyyən etmişdir ki, cavabdehin torpaq sahəsinə mülkiyyət hüququ tam qeydiyyata alınmasa da, XDS-nin 1989-cu il qərarı ona sahiblik və istifadə hüquqları vermişdir. Bu hüquqlar “dövriyyə qabiliyyətli əmlak hüquqları” hesab olunur və mülki dövriyyədə iştirak edə bilər.
Belə olan halda, tərəflər arasında bağlanmış əqd tamamilə etibarsız deyil, torpaq üzərində sahiblik və istifadə hüququnun ötürülməsi barədə hüquqi nəticə doğuran razılaşma kimi qiymətləndirilə bilər.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

# Cinayət işləri üzrə ★★★ statuslu qərar

**1-8/1-1198/2025 xülasə**

**İşin halları:**
Şəxs xüsusi ittiham qaydasına şikayətlə Mingəçevir Şəhər Məhkəməsinə müraciət edərək X1 və X2in CM-in 147.1 və 148-ci maddələri ilə cinayət məsuliyyətinə cəlb edilmələrini xahiş etmiş, şikayətində onların "İnstaqram" sosial şəbəkəsində onun barəsində təhqir və böhtan məzmunlu məlumatlar yaymaqla şərəf və ləyaqətini alçaltdıqlarını qeyd etmişdir.
Mingəçevir Şəhər Məhkəməsinin hazırlıq iclasının qərarı ilə şikayətə mahiyyəti üzrə Mingəçevir Şəhər Məhkəməsində baxılması üçün prosessual maneələrin olmadığı, şikayətə aidiyyəti üzrə bu məhkəmədə baxılmalı olduğu müəyyən edildiyi üçün şikayət icraata qəbul edilərək barələrində xüsusi ittiham qaydasında şikayət verilmiş şəxslər irəli sürülmüş ittiham üzrə məhkəməyə verilmiş və məhkəmə baxışı təyin edilmişdir.
Lakin məhkəmə istintaqının gedişində xüsusi ittihamçı və təqsirləndirilən şəxslər dindirildikdən sonra məhkəmə iclasında şikayətin aidiyyəti üzrə baxılması üçün Ağdam Rayon Məhkəməsinə göndərilməsi barədə qərar çıxarılmış və qərar xüsusilə ona əsaslanmışdır ki, təqsirləndirilən şəxslər xüsusi ittihamçının böhtan və təhqir kimi səciyyələndirdiyi məlumatları xaricdə qeydiyyata alınmış "İnstaqram" sosial şəbəkəsində yaymışlar, lakin təqsirləndirilən şəxslərin qeydiyyatda olduqları ünvan Ağdam rayonunun ərazisində yerləşir. Odur ki, xüsusi ittiham qaydasında şikayətə yurisdiksiyası təqsirləndirilən şəxslərin qeydiyyatda olduqları ünvana (rəsmi yaşayış yerinə) şamil edilən Ağdam Rayon Məhkəməsində baxılmalıdır.
Ağdam Rayon Məhkəməsi təqsirləndirilən şəxslərin yaşayış yerlərinin məhz Ağdam rayonunda yerləşməsi barədə hər hansı məlumatın olmaması, habelə məhkəmə baxışının gedişində müəyyən edilmiş halların şikayətin aidiyyəti üzrə göndərilməsi üçün əsas verməməsi kimi dəlillərdən çıxış edərək, şikayətin ərazi üzrə Mingəçevir Şəhər Məhkəməsində baxılmalı olması haqqında nəticəyə gəlmişdir.
Məhkəmə aidiyyəti məsələsi ilə bağlı Mingəçevir Şəhər Məhkəməsi ilə fikir ayrılığı yarandığından material Gəncə Apellyasiya Məhkəməsinə göndərilmiş, Gəncə Apellyasiya Məhkəməsi tərəfindən materialın aidiyyəti üzrə göndərilməsi məsələsinin həll edilməsi üçün Azərbaycan Respublikasının Ali Məhkəməsinə müraciət edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin mövqeyi:**
Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinin 14 iyul 2025-ci il tarixli qərarına əsasən, xüsusi ittiham qaydasında şikayət üzrə materialın baxılması üçün Mingəçevir Şəhər Məhkəməsinə göndərilməsi qərara alınmışdır.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin əsaslandırması:**
1. CPM-in 74.1-ci maddəsinə əsasən cinayət işinə və digər materiala ərazi aidiyyəti üzrə cinayətin törədildiyi yerin yurisdiksiyasına aid olan birinci instansiya məhkəməsində baxılır.
2. Ali Məhkəmənin Plenumunun "Xüsusi ittiham qaydasında şikayətlərə dair işlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" 2014-cü il 21 fevral tarixli 3 nömrəli Qərarının 12-ci bəndində xüsusi ittiham qaydasında şikayətlərlə bağlı CPM-in 74-cü maddəsinə əməl edilməli, o cümlədən belə şikayətlərə cinayətin törədildiyi yer üzrə rayon (şəhər) məhkəməsində baxılmalı olduğu təsbit edilmişdir.
3. Plenum Qərarının 12-ci bəndinə əsasən, kütləvi informasiya vasitələrində dərc edilməklə və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatlarında yerləşdirilməklə böhtan və ya təhqir xarakterli məlumatların yayılması ilə əlaqədar verilmiş şikayətlərə kütləvi informasiya vasitələrinin (internet informasiya ehtiyatlarının) hüquqi ünvanı üzrə birinci instansiya məhkəmələri tərəfindən baxılır.
4. Kütləvi informasiya vasitəsinin (internet informasiya ehtiyatının) hüquqi ünvanı məlum olmadıqda, yaxud da onlar xaricdə qeydiyyata alındıqda xüsusi ittiham qaydasında şikayətə təhqir və ya böhtan xarakterli məlumatları belə kütləvi informasiya vasitələrində (internet informasiya ehtiyatlarında) yaymış şəxsin

Azərbaycan Respublikasında axırıncı yaşayış yeri üzrə fəaliyyət göstərən məhkəmə tərəfindən baxılır.
5. Plenum qərarından da göründüyü kimi, xüsusi ittiham qaydasında şikayətə görə böhtan və təhqir kimi səciyyələndirilən məlumatlar xaricdə qeydiyyata alınmış internet informasiya ehtiyatında, o cümlədən "İnstaqram" sosial şəbəkəsində yayılmışdırsa, şikayətə bu məlumatları yayması ehtimal edilən şəxsin Azərbaycan Respublikasında axırıncı yaşayış yeri, yəni şəxsiyyət vəsiqəsində yaşayış yeri kimi göstərilən ünvan üzrə rayon (şəhər) məhkəməsində baxılmalıdır.
6. Lakin baxmayaraq ki, şikayətdə təqsirləndirilən şəxslərin yaşayış yeri kimi Ağdam rayonundakı ünvan göstərilmişdir, bir tərəfdən xüsusi ittiham qaydasında şikayətə ərazi üzrə aidiyyəti məhkəmədə baxılmasını ehtiva edən ictimai maraq, digər tərəfdən isə cinayət təqibi üzrə icraatın tezliyinin təmin edilməsinə olan ictimai maraq arasında tarazlığı və cinayət prosesi iştirakçılarının hüquqlarını daha yaxşı təmin etmək zərurəti onu tələb edir ki, artıq Mingəçevir Şəhər Məhkəməsində məhkəmə baxışı mərhələsində olan (2 aya yaxın müddətdə davam edən məhkəmə istintaqında araşdırılmış) xüsusi ittiham qaydasında şikayət üzrə materiala baxılması məhz həmin məhkəmədə davam etdirilsin.
7. CPM-in 299.3.1-ci maddəsinə əsasən hazırlıq iclasında məhkəmənin hər bir halda araşdırmalı olduğu məsələ "məhkəməyə daxil olmuş cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materialının və ya xüsusi ittiham qaydasında şikayətin ona aid olub-olmaması"dır.
8. Sözügedən məsələnin məhkəmə baxışının deyil, hazırlıq iclasının predmeti olmasından irəli gələrək cinayət işinə (materiala, xüsusi ittiham qaydasında şikayətə) həmin məhkəmədə baxılmalı olmadıqda onun məhkəmə aidiyyəti üzrə göndərilməsi barədə qərar da CPM-in 300.1.4-cü maddəsində hazırlıq iclasında cinayət işinə (materiala, xüsusi ittiham qaydasında şikayətə) ilkin baxılması nəticəsində çıxarılan qərarlar sırasında göstərilmişdir (eynilə, CPM-in 302.2.1-ci maddəsində məxsusi olaraq xüsusi ittiham qaydasında şikayətin məhkəmə aidiyyəti üzrə göndərilməsi barədə qərarın məhkəmənin hazırlıq iclasının nəticələri əsasında çıxarılan qərar olduğu təsbit edilmişdir).
9. Bundan başqa, nəzərə alınmalıdır ki, cinayət-prosessual qanunun heç bir norması xüsusi ittiham qaydasında şikayət məhkəmənin icraatına qəbul edildiyi və hazırlıq iclasının qərarı ilə məhkəmə baxışına təyin edildiyi halda, həmin şikayət üzrə məhkəmə baxışı mərhələsində, o cümlədən məhkəmə istintaqında sübutların tədqiq edilməsi nəticəsində müəyyən olunmuş (xüsusi ittiham qaydasında şikayətin başqa məhkəməyə aid olduğunu göstərən) faktlar əsasında şikayətin ərazi aidiyyəti üzrə başqa məhkəməyə göndərilməsini (buna dair qərarın məhkəmə baxışında çıxarılmasını) nəzərdə tutmur.
10. CPM-in 75.2-ci maddəsində təsbit edilmiş məhkəmənin öz icraatına qəbul etdiyi işi məhkəmə baxışında müəyyən edilmiş hallara görə həmin mərhələdən aidiyyəti üzrə başqa məhkəməyə göndərmək imkanı da xüsusi ittiham qaydasında şikayətlərə münasibətdə deyil, müstəsna olaraq bu Məcəllənin 74.5 və 74.6-cı maddələrində nəzərdə tutulmuş şərtlərə uyğun gələn cinayət işlərinə münasibətdə müəyyən edilmişdir.
11. Belə ki, CPM-in 74.5-ci maddəsinə əsasən "Cinayət işlərindən biri ağır cinayətlər məhkəməsinə, digəri isə rayon (şəhər) məhkəməsinə aid olan bir icraatda birləşdirilmiş cinayət işlərinə ağır cinayətlər məhkəməsində baxılır."
12. CPM-in 74.6-cı maddəsində isə nəzərdə tutulmuşdur ki, "Cinayət işlərindən biri hərbi məhkəməyə, digəri isə rayon (şəhər) məhkəməsinə, yaxud ağır cinayətlər məhkəməsinə aid olan bir icraatda birləşdirilmiş cinayət işlərinə hərbi məhkəmədə baxılır."
13. Odur ki, CPM-in 391.8.3-cü maddəsi də kobud pozuntu hesab olunan, birinci instansiya məhkəməsində məhkəmə baxışının məhkəmə aidiyyəti qaydaları pozulmaqla keçirilməsi hallarının dairəsinin növ (predmet və şəxs) üzrə aidiyyət qaydalarının pozulması, o cümlədən CPM-in 75.2-ci maddəsinin nəzərdə tutduğu hallarla məhdudlaşdırılmasını ehtiva etdiyi üçün birinci instansiya məhkəməsində baxılmış xüsusi ittiham qaydasında şikayətə dair materialda məhkəmə aidiyyəti qaydalarının pozulması müstəsna olaraq ərazi üzrə məhkəmə aidiyyətinin pozulması kimi çıxış etdikdə (predmet və şəxs üzrə məhkəmə aidiyyətinin pozulması ilə müşayiət olunmadıqda), konstitusion normalar və onlarla uzlaşan cinayət-prosessual qanunun müddəaları ilə əlaqələndirilən ictimai maraqlar arasında tarazlığın pozulmasına yol verilməməsi üçün belə pozuntu CPM-in 391.8.3-cü maddəsi ilə ehtiva olunan halların dairəsinə düşən hal kimi qiymətləndirilməməli və özü-özlüyündə birinci instansiya məhkəməsinin hökmünün (digər yekun qərarının) ləğv edilməsini və işin birinci

instansiya məhkəməsinə hazırlıq iclası və ya məhkəmə baxışı mərhələsinə qaytarılmasını tələb edən hal kimi nəzərdən keçirilməməlidir.

14. Beləliklə, təqsirləndirilən şəxslərin CM-in 147.1 və 148-ci maddələri ilə cinayət məsuliyyətinə cəlb edilmələrinə dair xüsusi ittihamçı tərəfindən verilmiş xüsusi ittiham qaydasında şikayət (material) baxılması üçün Mingəçevir Şəhər Məhkəməsinə göndərilməlidir.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

# İnzibati işlər üzrə ★★★ statuslu qərar

**2-1[102]-2580/2024 xülasə**

**Mübahisəli hüquqi məsələnin qısa məzmunu:** Azərbaycan Respublikası ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə "Müharibə veteranı" adı və vəsiqəsi verilərkən hərbi xidmətdən qanuni əsaslarla tərxis olunması tələbinin şamil edilməməsi

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22.09.1995-ci il tarixli 216 saylı qərarı ilə təsdiq edilmiş "Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri" haqqında Əsasnamənin 1-ci hissəsinin "Qeyd" hissəsindən görünür ki, bu qayda Azərbaycan Respublikası ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər istisna olmaqla, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarının aparıldığı dövrdə hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməyə, fərariliyə və ya digər hərbi cinayətlərə görə məhkum edilmiş (2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 42-ci maddəsinin ikinci hissəsinə əsasən cəzadan azad edilmiş şəxslər istisna olmaqla) və ya barələrində cinayət təqibi bəraətverici əsaslar olmadan xitam verilmiş və ya amnistiya aktına əsasən cinayət məsuliyyətindən azad edilmiş şəxslərə şamil olunmur.
2. Cavabdehin əsas dəlili ondan ibarət olmuşdur ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 216 nömrəli Qərarı 22 sentyabr 1995-ci il tarixdə təsdiq olunduğundan, qeyd edilən Qərarın müddəaları həmin tarixədək Azərbaycan Respublikası ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə tətbiq edilməlidir.
3. Kollegiya hesab edir ki, iddiaçının "Xəstəlik haqqında şəhadətnamə"sində onun döyüş əməliyyatları zamanı 1994-cü ildə aldığı travma nəticəsində əlil olmasına baxmayaraq, lakin ilk dəfə əlilliyin 1995-ci ildən sonraya təsadüf etməsi halında qərarın tarixinə üstünlük verilməsi həddən artıq formalizmə səbəb olmaqla, məzmunun formadan üstünlük təşkil etməsi prinsipi ilə, eləcə də ədalətlilik və mütənasiblik prinsipləri ilə ziddiyyət yaratmış olardı.
4. Hazırkı mübahisəni həll edərkən sözügedən normanın tətbiqi ilə bağlı qanunvericinin sözügedən məqsədi nəzərə alınmalıdır. Bu mənada, həlledici şərt əlilliyin hansı tarixdə əldə edilməsi deyil, onun səbəbli əlaqəsidir. Kollegiya qeyd edir ki, əlilliyin təyin edilməsinin yuxarıda qeyd olunan qərarın təsdiq olunmasından sonraya təsadüf etməsi məsələnin mahiyyəti baxımından həlledici əhəmiyyət kəsb etmir. Əlilliyin təyin edilmə tarixinin əsas götürülməsi qanunun güddüyü məqsədin nəzərə alınmaması nəticəsini doğura bilər. Bu zaman həmçinin nəzərə almaq lazımdır ki, nə "Veteranlar haqqında" Qanunda, nə də "Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri" haqqında Əsasnamədə belə bir məhdudiyyət təsbit edilməmişdir. Eyni zamanda, qanunvericilikdə istifadə edilmiş "əlilliyi müəyyən edilmiş şəxslər" ifadəsi onu da nəzərdə tutur ki, müharibə veteranı statusu əldə edə bilmək üçün mütləq əlillik təyinatına dair qərarın qüvvədə olması şərti tələb olunmur, şəxsə daha əvvəl Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatının aparılmış olması yetərlidir.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

# Kommersiya işlər üzrə ★★★ statuslu qərar

**2-2[102]-574/2025 xülasə**

**Mübahisəli hüquqi məsələnin qısa məzmunu:**

İddiaçı Azərbaycan Respublikası vətəndaşı olan fiziki şəxs, cavabdeh isə Azərbaycan Respublikasında təsis olunmuş kommersiya hüquqi şəxsidir. Tərəflər arasında bağlanmış beynəlxalq yükdaşıma müqaviləsinin 8-ci və 9-cu bəndlərində mübahisələrin Türkiyə qanunvericiliyi ilə İstanbul məhkəmələrində həll olunması razılaşdırılmışdır. Birinci instansiya məhkəməsi bu müqavilə şərtinə əsaslanaraq MPM-in 261.0.1-ci maddəsinə istinadla iş üzrə icraata xitam vermiş, apellyasiya instansiyası məhkəməsi həmin qərardadı qüvvədə saxlamışdır.

**Kassasiya instansiyası məhkəməsinin mövqeyi:**

MPM-in 261.0.1-ci maddəsi yalnız o hallarda tətbiq oluna bilər ki, mübahisəyə ümumiyyətlə məhkəmə qaydasında və ya konkret olaraq mülki məhkəmə icraatı qaydasında baxıla bilməz. Hazırkı işdə isə bu hallar mövcud deyildir.
Belə ki, Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri arasında olan məhkəmə mübahisəsinin həll edilməsi səlahiyyəti Azərbaycan dövlətinin yurisdiksiyasına aiddir. Azərbaycan Respublikasında da məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız Azərbaycan məhkəmələri həyata keçirirlər (Azərbaycan Respublikası Konstitusiyasının 60, 125-ci maddələri, "Məhkəmələr və hakimlər haqqında" Qanunun 1-ci maddəsi və MPM-in 2.1, 4.1-ci maddələri).
MPM-in 450.1 və 450.2-ci maddələri baxımından xarici şəxslərin iştirak etdiyi işlərə aid edilməyən və yalnız Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxslərinin iştirak etdiyi işlərdə, tərəflərdən birinin xarici ölkədə yaşayış yeri, iş yeri və ya onun adətən olduğu yer varsa, tərəflər xarici dövlətin məhkəməsinin beynəlxalq səlahiyyəti barədə razılığa gələ bilərlər. Qeyd olunan hallar olmadıqda isə tərəflər arasında olan belə razılaşma etibarsızdır və mübahisəyə Azərbaycan Respublikasının məhkəmələrində baxılmasını qeyri-mümkün edən hal kimi qiymətləndirilə bilməz.
Beynəlxalq konvensiyalarda və ya Azərbaycan Respublikası ilə xarici dövlət arasında bağlanmış beynəlxalq müqavilələrdə belə şərtin, yəni Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri arasında olan məhkəmə mübahisəsinin xarici dövlətin məhkəmələrində baxılması ilə bağlı razılaşmanın bağlanmasını mümkün edən qaydalar nəzərdə tutula bilər.
Lakin Azərbaycan Respublikası 2005-ci il tarixli Haaqa Konvensiyasına qoşulmamış və Türkiyə Respublikası ilə olan 2002-ci il tarixli ikitərəfli müqavilədə də belə müddəa nəzərdə tutulmamışdır.
Beləliklə, Ali Məhkəmə hesab edir ki, apellyasiya instansiyası məhkəməsi MPM-in 450.2-ci maddəsindəki şərtləri nəzərə almayaraq iş üzrə icraata xitam verilməsi barədə qərardad qəbul etmişdir.

# Qanunvericiliyə edilmiş dəyişikliklər

## 1.“Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə 2025-ci il 30 sentyabr tarixli 256-VIIKQD nömrəli Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Hüquqi akta keçid

“Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda edilmiş dəyişikliklər BMT-nin bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması üzrə Komitəsinin 33-cü sessiyası çərçivəsində verilmiş tövsiyələrə uyğun olaraq qəbul edilmişdir.
Dəyişikliyə əsasən “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 8.5-ci maddəsində “qanunsuz miqrantların saxlanılması” sözləri “müvafiq icra hakimiyyəti orqanının müvəqqəti yerləşdirmə” sözləri ilə əvəz edilmişdir.

## 2.“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 2025-ci il 10 oktyabr tarixli 264-VIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu

Hüquqi akta keçid

Dəyişiklik ilə “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illiyi” yubiley medalı;” hissəsindən sonra “Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” yubiley medalı;” məzmunda yeni hissə əlavə edilmişdir. Eyni zamanda həmin Qanunla “Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə və “Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilmişdir.

Hüquqi akta keçid

## 3. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 8 oktyabr tarixli 501 nömrəli Fərmanı

“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 178-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Fərmanın 1-ci bəndi ilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”na aşağıdakı məzmunda 22-2-ci hissə əlavə edilmişdir:
“22-2. Məcəllənin 279.2-ci və 279.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər

üzrə protokol:
22-2.1. elektrik közərmə lampalarının idxalına münasibətdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından – bu Siyahının 46.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;
22-2.2. elektrik közərmə lampalarının istehsalına münasibətdə Azərbaycan Respublikasının Energetika Nazirliyi adından – energetika naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi İdarə Heyətinin sədri, onun müavinləri, departament direktoru, onun müavini, şöbə müdiri, sektor müdiri, baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis, filial rəhbəri, onun müavini, baş müfəttiş, böyük müfəttiş, aparıcı müfəttiş, müfəttiş;
onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, regional bölmənin rəhbəri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.”.
Bu Fərman 60 Vt və daha yuxarı gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il yanvarın 1-dən, 25 Vt-dan (25 Vt daxil olmaqla) 60 Vt-a qədər gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il iyulun 1-dən qüvvəyə minməsi Fərmanın 2-ci bəndində qeyd olunmuşdur.

Hüquqi akta keçid

## 4. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 oktyabr tarixli 511 nömrəli Fərmanı

“Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 264-VIIQD nömrəli Qanunun tətbiqini təmin etmək məqsədilə həmin Qanun ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanı dedikdə Azərbaycan Respublikasının Prezidenti, “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müəyyən edilmişdir.
“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədrinə verilməsi Fərmanın 2-ci bəndində nəzərdə tutulmuş, Fərmanın 3-cü bəndi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 264-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etməsi tapşırılmışdır.

Hüquqi akta keçid

## 5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 21 oktyabr tarixli 308 nömrəli Qərarı

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2025-ci il 21 oktyabr tarixli 308 nömrəli Qərarı “İcra məmurları haqqında”, “İcra haqqında” və “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 iyul tarixli 445 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə qəbul edilmişdir. Belə ki, Qərarın 1-ci bəndi ilə “Ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülən

vəsaitdən istifadə Qaydası" təsdiq edilmişdir.
Qərarın 2 və 3-cü bəndləri ilə "İcra xidməti icra məmurlarının xüsusi Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 19 iyun tarixli 105 nömrəli Qərarı və "Cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 aprel tarixli 120 nömrəli Qərarı ləğv edilmişdir.
Qərarın 4-cü bəndi ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə ədliyyə orqanlarının xüsusi xəzinə hesabının açılması ilə eyni gündə icra xidməti icra məmurlarının xüsusi fondunda qalan vəsaitin və cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin xəzinə hesablarında qalan hissəsinin ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülməsini təmin etməsi tapşırılmışdır.

Hüquqi akta keçid

## 6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 oktyabr tarixli 322 nömrəli Qərarı

Qərarın 1-ci bəndi ilə "Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar və vergi orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 23 noyabr tarixli 631 nömrəli Qərarın adı dəyişdirilərək "Hərbi qulluqçulara və ədliyyə orqanlarının rəis və sıravi heyətinə ödənilən işdənçıxarma müavinətinin miqdarı və ödənilməsi şərtləri haqqında" redaksiyasında verilmişdir.
Bundan başqa qərarın 1-ci, 1-1-ci, 2-ci və 10-cu və s. hissələri ləğv edilmiş, uyğunlaşdırma xarakterli dəyişikliklər edilərək, müvafiq hissələr yeni redaksiyada verilmişdir.
Qərarın 2-ci bəndi ilə "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 avqust tarixli 135 nömrəli Qərarın adında və birinci hissəsində "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi" sözləri "Hərbi xidmət müddətinin və təminat xərcliyinin hesablanması və bu" sözləri ilə əvəz edilmişdir.
Eyni zamanda qərarın 1-ci hissəsində "Vergi Xidmətində" sözləri "Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsində" sözləri ilə, "təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi" sözləri "hərbi xidmət müddətinin və təminat xərcliyinin hesablanması və bu" sözləri ilə əvəz edilmiş, yeni məzmunda 2-1-ci, 2-2-ci və 2-3-cü hissələr əlavə edilmişdir.
Bu Qərar 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

Hüquqi akta keçid

## 7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il 30 sentyabr tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2025-ci il 30 sentyabr tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin I və X hissələri və 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1 və 12.5-ci maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

Hüquqi akta keçid

## 8. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il 16 oktyabr tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2025-ci il 16 oktyabr tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi və 71-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2 və 218.3-cü maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

Hüquqi akta keçid

## 9. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il 20 oktyabr tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2025-ci il 20 oktyabr tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.1-1, 206-1.2, 206-1.3, 263.1 və 263.1-1-ci maddələrinin həmin Məcəllənin 2.2, 5.1 və 43-cü maddələri ilə əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

№ 01/2025

Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının
Məhkəmə təcrübəsinin təhlili şöbəsi

# DÜNYADA HÜQUQ

Azərbaycan Respublikasının
Ali Məhkəməsi

# Beynəlxalq hüquq və insan hüquqları

## 1. Üç Afrika dövləti Beynəlxalq Cinayət Məhkəməsini (ICC) tərk edir





2025-ci ilin sentyabrında Mali, Burkina Faso və Niger Beynəlxalq Cinayət Məhkəməsindən çıxacaqlarını bəyan ediblər. Onların açıqlamasında Məhkəmə “qərb təsirinə xidmət edən vasitə” və “ədaləti bəzilərinə tətbiq edən qurum” kimi tənqid olunub.

Xəbərin əslinə keçid

## 2. Paris məhkəməsi keçmiş Fransa Prezidenti Nikola Sarkozini 5 il həbs cəzasına məhkum etdi





Paris məhkəməsi 25 sentyabr 2025-ci il tarixdə eks-Fransa Prezidenti Nicolas Sarkozy-ni 2007-ci il prezident seçkisi zamanı Liviyadan kampaniya maliyyələşdirilməsi məqsədilə yaradılmış cinayət qrupuna görə 5 il müddətinə həbs cəzasına məhkum edib. Tarixi qərar nəticəsində Sarkozi müasir Fransada həqiqi həbs cəzası alan ilk keçmiş prezident oldu.

Xəbərin əslinə keçid

# 3. Fransa İnsan Hüquqları Konvensiyasının 75 illiyi münasibətilə poçt markası çıxarır




Xəbərin əslinə keçid

Fransa bu ilin sentyabr ayında Avropa İnsan Hüquqları Konvensiyasının (1950–2025) 75 illiyini qeyd etmək üçün La Poste poçt xidməti vasitəsilə Strasburqdakı Avropa Şurasının poçtuna rəsmi marka buraxıb.

Marka, Konvensiyanın demokratik dəyərlərini, qanunun aliliyini və insan hüquqlarının qorunmasını simvolizə edir və bu sahədə ictimaiyyətdə maarifləndirmə məqsədi daşıyır.

# 4. Suriya məhkəməsi Bəşar əl-Əsəd haqqında həbs qərarı çıxardı

Suriya məhkəməsi ölkənin devrilmiş prezidenti Bəşar əl-Əsədin barəsində beynəlxalq axtarış elan edilməsinə yol açan qiyabi həbs qərarı verib. İttihamlar 2011-ci ildə Daraa şəhərində baş verən hadisələrlə bağlıdır. Belə ki, hadisələr zamanı etirazçılara qarşı güc tətbiqi nəticəsində çoxsaylı insan həlak olmuşdu.

Əsəd barəsində qəsdən adam öldürmə, işgəncə nəticəsində ölümkimi ağır ittihamlar irəli sürülüb. Məhkəmənin qərarına əsasən, sənəd Interpol vasitəsilə yayılaraq beynəlxalq hüquqi təqibə imkan yaradacaq.



Xəbərin əslinə keçid

## 5. Sloveniya İsrail Baş naziri Netanyahu üçün səyahət qadağası qoydu





Sloveniya hökuməti insan hüquqları və beynəlxalq hüququn tələblərinə öz prinsipial mövqeyi kimi götürərək İsrailin Baş naziri Benjamin Netanyahu üçün ölkəyə giriş qadağan edib — bu, Avropa İttifaqı daxilində Netanyahuya tətbiq olunan ilk qadağadır.

Sloveniya Xarici İşlər Nazirliyinin sözçüsü Neva Qrašiç bildirib ki, bu qərar Netanyahuya qarşı beynəlxalq cinayət məhkəməsi tərəfindən irəli sürülmüş müharibə cinayətləri və insanlığa qarşı cinayətlər iddiaları ilə əlaqədardır.

Xəbərin əslinə keçid

## 6. Rusiya işgəncələrə qarşı beynəlxalq nəzarətdən imtina etdi





29 sentyabr 2025-ci il tarixində Rusiya İşgəncə və Qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Konvensiyasının denonsasiyasını təsdiq edib. Bu aktla Rusiya artıq həmin konvensiyanın öhdəliklərindən azad olur və beynəlxalq nəzarət mexanizmləri — xüsusilə məhbusların saxlanma şəraiti ilə bağlı Avropa Komitəsinin nəzarət funksiyaları — qüvvədən düşür.

Xəbərin əslinə keçid

# Məhkəmə islahatları və presedentlər

## 7. Gürcüstanda məhkəmə qanununa dəyişikliklər





2025-ci ilin iyununda Gürcüstan parlamenti "Ümumi məhkəmələr haqqında" Qanuna əhəmiyyətli dəyişikliklər edib. Rəsmi dairələr bunu məhkəmə sisteminin təkmilləşdirilməsi kimi təqdim etsə də, digər hüquq müdafiəçiləri bu islahatları kəskin tənqid ediblər.

Dəyişikliklərə əsasən:

- Hakimlərə qarşı intizam işlərinə baxan Müstəqil İnspektor ofisi ləğv olunub, səlahiyyətlər Yüksək Hüquq Şurasına verilib;
- Hakimlərin intizam proseslərinin şəffaflığı azaldılıb, ictimaiyyətə açıqlıq imkanları məhdudlaşdırılıb;
- Məhkəmə binalarında foto və video çəkilişlər qadağan edilib;
- Hakimlərin maaşları əhəmiyyətli dərəcədə artırılıb.

Xəbərin əslinə keçid

## 8. İsraildə Ali Məhkəmənin səlahiyyətlərinin məhdudlaşdırılması ilə bağlı mübahisələr davam edir





2023–2024-cü illərdə İsraildə Baş nazir Benyamin Netanyahunun hökuməti Ali Məhkəmənin səlahiyyətlərini məhdudlaşdırmaq üçün hüquq islahatları təşəbbüsü ilə çıxış edib. Bu addım ölkədə böyük siyasi və ictimai narazılıqlara səbəb olaraq, son illərin ən ciddi siyasi böhranlarından birinə çevrilib. İslahatlara qarşı etirazlar, hüquqi müstəqillik və demokratik institutların qorunması mövzusunu gündəmin ön sırasına gətirib.

Xəbərin əslinə keçid

## 9. ABŞ Ali Məhkəməsi qadınların abort hüquqlarını dəyişən mühüm qərar qəbul etdi







2022-ci ilin İyun ayında ABŞ-ın Ali Məhkəməsi, Roe v. Wade (1973) qərarını ləğv edərək, qadınların abort hüququnun federal səviyyədə qorunmağına son qoydu. 50 il əvvəl verilən bu qərarın dəyişdirilməsi ölkədəki ən əhəmiyyətli hüquqi dönüş nöqtələrindən biri oldu. Geri çevrilmə nəticəsində ştatlara aborta qadağa qoymağa və ya ciddi şəkildə məhdudlaşdırmağa icazə veriləcək.

Xəbərin aslinə keçid

## 10. ABŞ Ali Məhkəməsi universitet qəbullarında "Müsbət ayrı-seçkilik" siyasətini məhdudlaşdırdı

2023-cü il 23 iyunda ABŞ Ali Məhkəməsi mübahisəli qərar qəbul edərək universitetlərin abituriyentlərin qəbulunda onların irqi mənsubiyyətini nəzərə almasına imkan verən "Müsbət ayrı-seçkilik" siyasətini ləğv etdi. Məhkəmə bu yanaşmanı Konstitusiyaya zidd sayaraq, təhsil sahəsində bərabərlik prinsipinə — yəni hər kəsin irqindən asılı olmayaraq eyni şərtlərlə qəbul edilməsinə zidd olduğunu bildirdi. Bu qərar ölkədə uzun illər mübahisə doğuran irqi kvotalar və bərabərlik siyasəti ilə bağlı tarixi dönüş nöqtəsi oldu.



Xəbərin aslinə keçid

## 11. Makron ailəsi ABŞ məhkəməsinə müraciət etdi: Bricit Macronun kişi olması iddiasına qarşı elmi sübut təqdim olunacaq

Fransa Prezidenti Emmanuel Makron və həyat yoldaşı Bricit Makron ABŞ məhkəməsində sağçı fəal Kendeys Ovensə qarşı böhtan iddiası qaldırıblar. Ovens əsassız şəkildə Bricit Makronun əslində "Jan-Mişel Troqnyö" adlı kişi olduğunu iddia edib.

Makron cütlüyünün vəkilləri məhkəməyə elmi ekspert rəyləri, Brijit Makronun hamiləlik dövrünə aid fotoşəkillər və digər sənədlər təqdim etməyi planlaşdırırlar. Məqsəd bu iddiaların tamamilə uydurma olduğunu sübut etməkdir.



Xəbərin əslinə keçid

## 12. Fransa İrana qarşı Beynəlxalq Ədalət Məhkəməsində qaldırdığı işi geri götürüb.





Fransa İrana qarşı Beynəlxalq Ədalət Məhkəməsində qaldırdığı işi geri götürüb. Bu işdə Fransa İranı iki Fransa vətəndaşının — Cécile Kohler və Jacques Paris — qanunsuz saxlanılması və konsulluq hüququna məhdudiyyət qoyulması ilə ittiham etmişdi.

Fransa iddia edirdi ki, İran onların həbsinin əsassız olduğunu və onların həbsxanada işgəncə şəraitində saxladığını, konsulluq ziyarətlərinə imkan verilmirdi.

Xəbərin əslinə keçid

## 13. Böyük məbləğli boşanma işi Ali Məhkəmədə — 100 milyon funt sterlinqlik mülkiyyət mübahisəsi





2 iyul 2025-ci ildə İngiltərənin Ali Məhkəməsi ailə hüququ sahəsində son illərin ən çox müzakirə olunan işlərindən biri – Standish v Standish üzrə qərarını elan edib. Məhkəmə xanım Standish-in apellyasiya şikayətini rədd edərək, əvvəlki instansiyanın qərarını qüvvədə saxladı. Xatırladaq ki, Apellyasiya Məhkəməsi əvvəlcə xanım Standish-in xeyrinə 100 milyonluq iddia məbləğinin 45 milyon funt sterlinq hissəsində müsbət qərar çıxarmış, daha sonra bu rəqəmi 25 milyon funt sterlinqə endirmişdi.

Bu qərar boşanma hüququnda son 20 ilin ən mühüm presedentlərindən biri kimi qiymətləndirilir. Ali Məhkəmə açıq şəkildə bəyan etdi ki, sadəcə aktivlərin ər və ya arvadın adına köçürülməsi onların avtomatik olaraq "ortaq mülkiyyət" sayılması üçün yetərli deyil. Aktivlərin ailə tərəfindən necə istifadə olunduğu, tərəflərin niyyəti və həyat tərzi də nəzərə alınmalıdır.

Xəbərin əslinə keçid

## 14. Keniyanın Ali Məhkəməsi LGBT təşkilatlarının qeydiyyat qadağasını ləğv etdi



2023-cü ildə Keniyanın Ali Məhkəməsi LGBT təşkilatlarının qeydiyyatının qadağan edilməsini Konstitusiyaya zidd elan edib. Bu qərar ölkə daxilində insan haqlarının müdafiəsində mühüm dönüş nöqtəsi sayılır və bütövlükdə Afrika qitəsində hüquqi və ictimai müzakirələrə ciddi təsir göstərib.

Xəbərin əslinə keçid

# Texnologiya və süni intellektin hüquqa təsiri

## 15. Süni İntellekt təhsili ABŞ hüquq məktəblərində məcburi olur






2025-ci ilin payızından etibarən ABŞ-ın bir sıra hüquq məktəbi daxilində tələbələr üçün süni intellektlə bağlı kurslar və təlimlər məcburi edilir. Məqsəd tələbələrə Sİ-in imkanları və riskləri, "hallüsinasiyalar" kimi səhvləri tanıma bacarığı qazandırmaqdır.

Xəbərin əslinə keçid

## 16. ABŞ Ali Məhkəməsi sədri: "Süni intellekt hakimləri əvəz etməyəcək, lakin məhkəmə işlərinə təsir edəcək"



ABŞ Ali Məhkəməsinin sədri John Roberts 2023-cü ilin illik hesabatında süni intellektin məhkəmə sisteminə təsirinə diqqət çəkib. Roberts bildirib ki, insan hakimlərin rolu davam edəcək, lakin Sİ məhkəmə baxışı mərhələsində olan işlərə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. O həmçinin qeyd edib ki, Süni İntellekt hüquqi araşdırma və hüquqi informasiyaya çıxış sahələrində böyük potensiala malikdir, amma "hər hansı AI istifadəsi ehtiyat tələb edir" — çünki məxfilik, səhv sitatlar ("hallüsinasiyalar") və insanlıq elementinin itirilməsi riski var.

Xəbərin əslinə keçid

## 17. ChatGPT-nin rolu: ABŞ-da yeniyetmənin intiharı ilə bağlı OpenAI-ə qarşı iddia qaldırıldı






ABŞ-da 16 yaşlı bir gəncin faciəvi intiharından sonra valideynləri OpenAI-yə qarşı məhkəmə iddiası qaldırıblar. Onlar bildirirlər ki, yeniyetmə intihardan əvvəl uzun müddət ChatGPT ilə yazışıb və süni intellekt onun depressiyasını daha da dərinləşdirib. İddialara görə, chatbot hətta intihar üsulları barədə məsləhətlər verib və intihar məktubu yazmaqda "kömək" edib. Bu qalmaqal texnologiyanın məsuliyyət sərhədləri barədə qlobal müzakirələri alovlandırıb və AI-nin insan psixologiyasına təsiri ilə bağlı ciddi suallar doğurub.

Xəbərin əslinə keçid

# Cəmiyyət və siyasət kontekstində hüquqi məsələlər

## 18. Almaniyada çətənənin leqallaşmasının müzakirəsi davam etdirilir



2024-cü ildə Almaniyada çətənənin qismən leqallaşdırılması haqqında qanun qəbul olunmuşdur. Qanuna əsasən, Almaniyada 18 yaşdan yuxarı şəxslər şəxsi məqsədlər üçün müəyyən miqdarda (təxminən 25 qram) çətənə saxlaya bilərlər. Bu qanun, çətənənin tibb məqsədli istifadəsini daha da genişləndirərək, şəxsi istifadə üçün imkan yaradıb.

*(Qeyd: Azərbaycanda isə çətənənin (qurudulmuş) şəxsi istifadə üçün nəzərdə tutulan miqdarı 5 qramadəkdir)*

Xəbərin əslinə keçid

## 19. Rusiyada övladlığa götürülməyə yeni qadağa






25 noyabr 2024-cü ildə Rusiya Dövlət Duması uşaqların xarici vətəndaşlar tərəfindən övladlığa götürülməsi ilə bağlı yeni məhdudiyyətlər təsdiqləyib. Qanuna əsasən, əgər övladlığa götürən şəxsin vətəndaşı olduğu ölkənin qanunvericiliyi cinsiyyət dəyişikliyinə icazə verirsə, həmin ölkənin vətəndaşları Rusiyada uşaqları övladlığa götürə bilməyəcək.Qanun layihəsi 397 deputatın səsi ilə qəbul olunub.

Xəbərin əslinə keçid

## 20. YouTube Tramp ilə razılaşdı: 24,5 milyon dollar ödəniləcək






YouTube Donald Trampın hesabının dayandırılması ilə bağlı Şimal Kaliforniya Federal Rayon Məhkəməsində qaldırılan iddianı bağlamaq üçün 24,5 milyon dollarlıq razılaşmaya gedib. Trampın hesabı 2021-ci il Kapitol hücumundan sonra platformadan silinmişdi.

Razılaşmaya görə, məbləğin 22 milyon dolları Trampın istəyi ilə "Trust for the National Mall" fonduna yönəldiləcək və Ağ Evdə yeni bal zallarının tikintisinə sərf olunacaq. Qalan 2,5 milyon dollar isə iddianı dəstəkləyən digər tərəflərə veriləcək.

Xəbərin əslinə keçid

## 21. Rusiyada “child-free” təbliğatına qarşı yeni qanunvericilik

2024–2025-ci illərdə Rusiyada “child-free” — yəni könüllü olaraq uşaqsız həyat tərzinin təbliğatını qadağan edən qanunlar qəbul edilib. Qanunvericiliyə görə, bu mövzunun KİV-də, reklam çarxlarında, sosial şəbəkələrdə və digər internet platformalarında təşviqi inzibati məsuliyyət yaradır.

Ekspertlərin fikrincə, bu qanun Rusiya hüquq sistemində son illərin ən çox mübahisə doğuran normativ dəyişikliklərindən biridir. Çünki bir tərəfdən dövlət demoqrafik siyasəti gücləndirməyi hədəfləyir, digər tərəfdən isə fərdi seçim azadlığı və ifadə azadlığı ilə bağlı ciddi suallar ortaya çıxır.




[Xəbərin əslinə keçid]

## 22. Qazaxıstanda “Saltanat Qanunu”: qadınlara və uşaqlara qarşı cinayətlərə qarşı sərt tədbirlər






2024–2025-ci illərdə Qazaxıstanın hüquq sistemində qadınlara və uşaqlara qarşı törədilən cinayətlərə görə nəzərdə tutulan cəzalarda əhəmiyyətli sərtləşdirmələr edilib. Hüquq-mühafizə orqanlarında aparılan islahatlar, məişət zorakılığı ilə mübarizə tədbirlərinin gücləndirilməsi və yeni qanuni mexanizmlərin tətbiqi bu prosesin əsas istiqamətlərini təşkil edir. 2017-ci ildə dekriminallaşdırılan məişət zorakılığı bu ilin 15 iyun tarixindən etibarən yenidən cinayət məcəlləsinə daxil edilib.

Qanun dəyişikliyi, keçmiş nazirin həyat yoldaşı Saltanat Nukenovanın amansızcasına qətlə yetirilməsi ilə bağlı cinayət işinə cəmiyyətin sərt reaksiyasının nəticəsi olaraq formalaşıb və ölkədə hüquqi-siyasi gündəmin ön sırasına çıxıb.

[Xəbərin əslinə keçid]

# 23. Tacikistanda sosial şəbəkələrdə "reaksiyalara görə" cinayət məsuliyyəti ləğv olundu




Xəbərin əslinə keçid

14 may 2025-ci ildə Tacikistanda mühüm qanun dəyişikliyi qəbul edilib. Yeni qanuna əsasən, sosial şəbəkələrdə hakimiyyətin "ictimai qaydaya təhlükə" və ya "ekstremist" hesab etdiyi paylaşımlara sadəcə "like", emoji və ya repost qoyduğuna görə təyin olunan cinayət məsuliyyəti ləğv edildi.

# 24. Qırğızıstanda ölüm hökmünün bərpası təşəbbüsü





2025-ci ildə Qırğızıstanda cinayət qanunvericiliyinə dəyişikliklərlə bağlı müzakirələr çərçivəsində cəzaların sərtləşdirilməsi və hətta ölüm hökmünün bərpası barədə təşəbbüs irəli sürülüb. Təklifə görə, ölüm hökmü yalnız qadınlara və uşaqlara qarşı törədilən xüsusilə ağır cinayətlərə görə təyin edilə bilər.

Bu təşəbbüs ictimaiyyət arasında geniş rezonans doğurub. Tərəfdarları bunu cinayətlərin qarşısını almaq üçün zəruri addım kimi görürlər, əleyhdarları isə insan hüquqları standartlarına zidd olduğunu vurğulayırlar.

Xəbərin əslinə keçid

## 25. “Mədəniyyətə zidd” geyimə qadağa

2024-cü ildə Tacikistanda “tacik mədəniyyətinə zidd geyimlərin” istifadəsini qadağan edən qanun qəbul olunub. Qanun əslində hicab və digər dini simvollara qarşı yönəlib. Yeni qaydalara görə, belə geyim qaydalarını pozan şəxslərə cərimələr təyin edilir, qadınlar isə polis tərəfindən saxlanılaraq baş örtüyünü çıxarmağa məcbur edilə bilirlər. Bundan əlavə, saqqal saxlamaq “ekstremizmin əlaməti” kimi qiymətləndirilir.




Xəbərin əslinə keçid

***Qeyd edirik ki, bülletendə yer alan bütün məlumatlar açıq internet resurslarından götürülmüşdür. Məlumatların düzgünlüyü və aktuallığı üçün məsuliyyət həmin mənbələrə məxsusdur.* Əlavə məlumat və suallar üçün:**


Nilgün Məmmədova – **1830**
Bahar Oruclu – **1818**
*Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının Məhkəmə təcrübəsinin təhlili şöbəsi*


# Faydalı keçidlər

1. UN News – https://news.un.org
2. Council of Europe Newsroom – https://www..int/en/web/portal/news
3. EU Law & Justice News – https://europa.eu/newsroom
4. OECD – https://oecd.org/newsroom
5. Avropa İnsan Hüquqları Məhkəməsi (ECHR HUDOC) – https://hudoc.echr.coe.int
6. Avropa Ədalət Məhkəməsi (ECJ/ CJEU) – https://curia.europa.eu
7. Beynəlxalq Ədalət Məhkəməsi (ICJ) – https://icj-cij.org
8. Transparency International – https://transparency.org
9. World Justice Project – https://worldjusticeproject.org
10. UNODC – https://unodc.org
11. Harvard Law Today – https://today.law.harvard.edu
12. Stanford Law and Technology Review - https://law.stanford.edu/stanford-technology-law-review-stlr/
13. The Guardian – Law section – https://theguardian.com/law
14. Law.com International– https://www.law.com/international
15. Reuters Legal – https://www.reuters.com/legal
16. Bloomberg Law – https://news.bloomberglaw.com
17. Financial Times – Law Section – https://www.ft.com/law
18. JURIST – https://www.jurist.org
19. Law360 – https://www.law360.com.
20. Global Arbitration Review (GAR) – https://globalarbitrationreview.com
21. The Lawyer – https://www.thelawyer.com
22. European Law Blog – https://europeanlawblog.eu
23. Euractiv – Justice & Home Affairs – https://www.euractiv.com/section/justice-home-affairs
24. ABA Journal (American Bar Association) – https://www.abajournal.com